

# Qızılbaş metafizikası,

## Mozaik risalə

İlqar Fəhmi

*Kitabdan fraqmentlər*

6-cı hissə

### Şirazda

Gənc Səfiəddin gəlib Şiraza yetişəndə, ilk olaraq keçirdiyi hiss ümidlərinin ovulub tökülməsi olur - Öz içindəki sonsuz sualların cavabını verəcək bir insanla görüşmək ona nəsib olmamışdı. Bunu Tanrının cəzası kimi də yozmaq olar - İlahi istəməyib ki, Səfiəddin öz suallarına cavab tapıb rahatlansın, məhz bu səbəbdən onun gəlişindən bir müddət əvvəl Şeyx Nəcibəddin dünyadan köç edib.

Bu cür qarışıq fikirlər içində qovrulan Səfiəddin iki yol qarşısında qalır - ya geri qayıtmaq, ya da ki, mürşid axtarışlarını davam etdirmək...

Geri qayıtmaq zahirən daha asan idi - lakin bu demək idi ki, içindəki iztirab tufanları ömrünün sonuna qədər onu müşayiət edəcək, rahat buraxmayacaq. Bu cür yaşayış isə mümkünsüz görünürdü.

Deməli axtarmaq, yenə də axtarmaq...

### Axtarış və səyahət

Bəşər tarixinin bütün mərhələlərində düşünən insanlar axtarış içində olub və bu axtarış prosesi bu gün də var, gələcəkdə də olacaq. Axtaran insan - "Səyyah" obrazı zənnimcə, Rene Dekartın məşhur "Düşünən insan" arxetipindən daha genişdir, daha universaldır. "Koqit erqo sum" (Əgər düşünürəmsə, deməli varam) kəlamı, "Əgər axtarıramsa, varam" forasında təqdim olunsaydı, daha düz olardı. Çünki bütün düşüncələrin məqsədi də əslində elə axtırışdı - kiçik və böyük həqiqətlərin və nəhayət, ən ali həqiqətin axtarışı...

Bu axtarışları əlbəttə ki, şərti olaraq iki istiqamətə ayırmaq olar - zahiri və daxili; introvert və ekstrovert; fiziki və metafizik...

Zahiri, fiziki, ekstrovert axtarış kəmiyyət etibarilə daha çox olub; ancaq bəşər toplumunun çox az hissəsi daxili metafizik axtarışlara çıxmağı bacarıb, çünki introversiyanın özü də bir istedaddır. Hər adam öz içinə boylana bilmir, hər adam öz-özünə kənardan baxa bilmir və nəhayətdə, hər adam öz içində hakim-müttəhim ikiliyini yarada bilmir. Bunu yalnız seçilmişlər bacarır...

Budur, Səfiəddinin yeniyetməlik dövrlərini gözdən keçirtdik, mistik yaşantılarını, metafizik hallarını qismən təsvir etdik. Həmin mərhələni irfan alimləri "talib"lik adlandırır. Yəni, düşüncə sahibi ətrafdan verilən və toplumu qane edən informasiyalarla kifayətlənmir, daha çox bilgi istəyir. Sual oluna bilər, niyə? Bu sualın cavabı yenə də xilqətin pərdəsinin üzündədir. Niyə görə biri arıq olur, az qida ilə qane olur, digəri doymur, yenə istəyir... Fiziologiyanın xüsusiyyətləri fərqli olduğu kimi, psixika da eyni deyil.

Kimlərinsə təfəkkürü, ruhu "tamahkar"dır. Lakin dünyəvi tamahdan fərqli olaraq, "bilgi tamahı" ruhani-mənəvi xarakter daşıdığına müsbət, ali keyfiyyətdir ki, seçilən bəndələrə nəsib olur.

Özündə bilgi tamahı hiss edən təfəkkür sahiblərinə, qeyd etdiyim kimi, irfan aləmində "talib" deyilir. Bu söz ərəb mənşəlidir və tələb edən anlamını verir. (Tələbə sözü də həmin kökdəndir. Fars dilində danəşcu - bilik axtaran, türk dillərində isə öyrənci sözlərindən istifadə olunur.)

Talib hələ nə istədiyini bilmir, amma onu dəqiq anlayır ki, əldə etdiyi bilgi onu doydurmur. Və axtarışa başlayır. Bu səyyahlıq dönəmi qısa da ola bilər, uzun da. Rahat da ola bilər, iztirablı da...

Və nəhayətdə talib öz fərdi yolunu-istiqamətini tapandan sonra, irfan terminiylə desək, "salik"ə çevrilir. Lakin talib öz hərəkət istiqamətini metafizik sahəyə yox, sırf dünyəvi-empirik bilgilər müstəvisində davam etdirsə, artıq "salik" yox, "alim" olur.

Burda yenə də "bilik elmi" və "elmi bilik" arasındakı fərqə gəlib çıxırıq. Saliklik "bilik elmi"nin yoludur, alimlik "elmi bilik" yolu. Kim dünya haqqında dünyəvi rasional-məntiqi biliklərlə qane olacağını düşünürsə, "elmi bilik" yoluyla gedir, kimsə bununla qane olmayacağını və daha böyük, daha ali biliklərə can atacağını hiss edirsə, artıq "bilik elmi"nə istiqamətlənir.

Beləliklə, talib hər yeri axtarandır, hər yolu sınaqdan keçirəndir. Salik bir həqiqət istiqamətində yola çıxandır. Yaxşı, bəs "alimlik"?

Burda bir incə mətləb ortaya çıxır. "Elmi bilik" yoluyla gedib, fəlsəfi metodun köməyi ilə rasional-məntiqi biliklər əldə etməklə dünyanı dərk etməyə çalışıb "alimlik" yolu tutanlar özlərini "talib" mərhələsindən təbii ki, üstün tutublar, ancaq....

Şərq arifləri belə bir məcaz təqdim edirlər - toplum (əvvam) qaranlıq mağarada yaşayıb bunun fərqində olmayan çoxluqdan ibarətdir. Onlar heç qaranlıqda yaşadıqlarının fərqində deyillər, elə düşünürlər ki, həyat elə yalnız bundan ibarətdir... Əvvam toplum mənəvi hərəkətdən məhrumdur. Başqa sözlə desək, ayaqları yoxdur. Daş heykəl kimidirlər.

Talib bu qaranlığa qane olmayan fərdlərdir. Lakin o hələ hara, hansı istiqamətdə gedəcəyini bilmir. Ona görə də hələ gözləyir. Burda da hərəkət yoxdur...

Salik bəsirət gözünü az da olsa aralamağa nail olaraq, uzaqda bir işıq nöqtəsi görür və başa düşür ki, bu işıq zərrəsi günəşli, işıqlı dünyanın mövcud olduğu yerdir. Bunu bütün varlığı ilə dərk edəndən sonra, bu işığa doğru yol alır, qarşısını kəsən bütün maddi və mənəvi sədləri qırmağa çalışaraq, qaranlıq mağaradan işığa doğru can atır.

Bəs alim-filosof neynir? O da yerində dayanır? Yox. Filosof-alim özünün bəsirət gözünü açmağa çalışmır, əliylə ətrafı -mağaranın divarlarını yoxlaya-yoxlaya çıxış yolunu tapmağa çalışır. Axtarır, axtarır, vaxt keçir, o isə yavaş-yavaş mağaranın çıxışına yaxınlaşdığını zənn etməyinə baxmayaraq, nəhayətdə dalana dirənir. Ola bilər ki, bəlkə də mağaranın çıxışına doğru aparan istiqamətə də yaxınlaşmış ola, lakin bəsirət gözü açıq olmadığına görə, həqiqətə aparan yolun yanından da görməmiş yanından keçə də bilər...

Elm yolu tutan böyük alim-filosof İbn Sina ilə məşhur sufi Şibli arasında əfsanəvi dialoqu xatırlatmaq məncə, yerinə düşər.

Uzun söhbətdən sonra İbn Sina deyir ki, mənim bildiyimi o görür.

Şibli deyir ki, mənim gördüyümü o bilir...

Bu iki cümlənin mahiyyəti nədir?

Şibli işığı bəsirət gözüylə görür və ibn Sina ilə söhbətdən sonra anlayır ki, onun gördüyü işığı bu alim öz fəlsəfi məntiqinin gücü ilə bilir...

İbn Sina isə anlayır ki, onun fəlsəfi məntiq üsullarıyla bildiyi işığı bu şəxs bəsirət gözüylə görür...

Xristian teologiyasında bu tip analogiya adətən Foma Akvinski ilə Jan Jak Russo arasında aparılır. Foma Akvinski müsəlman filosoflarının davamçısı olaraq, Tanrının varlığını rasional-məntiqi dəlillərlə sübut edir (kosmoloji, antropoloji və s.). Russo isə bildirirdi ki, mənə bu dəlillər gərək deyil, mən bəsirət gözüylə Tanrını görürəm, elə qaranlıq gecədə başımı qaldırıb bircə dəfə ulduzlu səmaya baxanda, bütün içim-ruhum Tanrı hissiylə dolur...

Bunlardan biri bizim təbirimizcə desək, irrasional irfan, biri isə rasional məntiq yoludur...

Beləliklə, həqqə doğru hərəkətin -axtarışın iki formasını müəyyən etdik. Birinci forma - hərəkətə başlayıb hər yeri araşdırmaq, hər istiqaməti öyrənmək, həqiqətə gedən yolu tapmağa çalışmaq; ikincisi isə bəsirət gözü açılandan sonra, həqq işığını görmək, yalnız bundan sonra həmin istiqamətdə hərəkətə başlamaq...

Fəlsəfə ilə irfanın əsas fərqi də bundadır... İrfanda istənilən hərəkət irəliləyişə səbəb olur, çünki hərəkət istiqaməti bəllidir. Fəlsəfədə isə mümkündür ki, uzun müddət hərəkət edəsən, lakin heç bir irəliləyişə nail olmayasan, çünki lazımi istiqamət dəqiq müəyyən edilməyib.

Gənc Səfiəddin Şiraza gələrkən talib idi, ümid edirdi ki, burda öz işıq göstərənini-mürşidini tapıb salik olacaq. Lakin ilk cəhdi uğursuz oldu.

> İrfanda istənilən hərəkət irəliləyişə səbəb olur, çünki hərəkət istiqaməti bəllidir.

### İki qardaş

Əvvəldə qeyd etmişdik ki, Səfiəddinin böyük qardaşı Xacə Səlahəddin uzun illər öncəsi bura gəlmişdi, Şirazda varlı tacirlərdən birinin qızıyla evlənmişdi və həmin vədələrdə artıq özü də şəhərin tanınmış tüccarından idi... Səfiəddinin Şiraza gəlməsi xəbərini alan qardaşı onu qarşılamaqçün Teymur adlı nökərini zərbəft donlarla, bəzəkli bədöy atla onun yanına göndərmişdi ki, geyinib-keçinsin və böyük dəbdəbəylə şəhərə girsin... Ancaq Səfiəddin bunlardan imtina edib, fəqir libasını tərk etməmiş, nökəri geri qaytarıb bildirmişdi ki, özüm gəlib qardaşıma baş çəkəcəm...

Şeyx Nəcibəddinin ölüm xəbərini alandan sonra Səfiəddin öz qardaşıyla görüşmək qərarına gəlir. Onun yerini öyrənən Səfiəddin ertəsi gün hüzuruna üz tutur, ancaq Şiraz bazarına yaxınlaşanda görür ki, artıq kökəlib ağırlaşmış, burnu yuxarı qalxmış Xacə Səlahəddin Rəşid qiymətli ipək geyim-keçimdə, bahalı ərəb atının belində, lovğa bir əda ilə bazardan çıxıb evinə tərəf yol alıb, ətrafında da yetmişə qədər nökərnaib, qul-qaravaş gəlir... Ara-sıra Xacə Səlahəddin nökərlərə acıqlanır, onlar da daha səylə, daha kobudluqla küçədəki adamları qamçılayıb kənara çəkir, ağaları üçün yol açır...

Nədənsə, qardaşının bu şahanə görünüşü Səfiəddinə o qədər də xoş gəlmir. Ərbədildə öz sadəliyi, səxavət və təqvasıyla seçilən, dünya malında zərrə qədər də gözü olmayan Pir Əminəddin Cəbrayılın oğlunun bu qədər cah-cəlal, dəbdəbə aşiqi olmağı, ətrafında bu qədər nökər-naib gəzdirməyi elə bil Səfiəddinə bir yadlıq, özgəlik hissi yaradır. Bəli, Səlahəddin Rəşid artıq Pir Əminəddin Cəbrayılın oğlu deyildi, Şirazın ən məşhur tacirinin işgüzar kürəkəni idi...

Məhz buna görə də, Səfiəddin kənara çəkilir, özünü qardaşına göstərmir. Amma Xacə Səlahəddin Rəşid onun yanından keçəndə atının üzəngisi Səfiəddinin paltarına toxunur... Qardaşının bu dəbdəbəsini ruhu qəbul etməyən gənc Səfiəddin nə fikirləşirsə, tez bulaq başına gedib, paltarını soyunub pak edir, bir müddət düşünüb-daşınır, nəhayət, qardaşının yanında qalmaq fikrindən daşınıb yenə də əhli-qüruba üz tutur - Şirazda o vaxt məşhur olan Madər Süleyman məscidinə gəlir, məscid ətrafı qəbiristanlıqdakı məqbərələri dolaşır, əslən ərdəbilli olan sufi piri Şeyx Əbuzərin qəbri üstündə tikilən türbədə məskunlaşır, burda yaşamağa başlayır...

Qəribə hərəkətdi, deyilmi? Sənin qardaşın bu boyda şəhərin ən varlı tacirlərindən ola, əlində bu qədər sərvət, maddi imkanlar, amma sən ona yaxın getməyəsən, hətta ona toxunan paltarını belə aparıb suya tutasan. Niyə? Axı normal insan əksinə, mənsəb sahibi olan yaxını-qohumu ilə əlaqələri bir qədər də sıxlaşdırar, onun az qala başına dolanar, öz arzu-istəklərini onun köməyilə həyata keçirməyə çalışar... Məgər

# Səfəvi mistikası

elə bu gün də ətrafda bunu müşahidə etmirikmi? Niyə bəs Səfiəddin doğma qardaşına yaxın getmədi?

Niyə irfan təfəkkürlü insanlar sərvətə qarşı bu qədər ehtiyatlı və narahat olurlar? Oddan qorxan kimi sərvətdən, var-dövlətdən uzaq durmağa çalışırlar? Məgər islam peyğəmbərinin özü də tacir olmamışdımı?

Burda çox incə bir mətləb ortaya çıxır. İlahi sınaq məqamı...

İrfan müstəvisində Tanrının insana bəxş etdiyi hər bir dünyəvi nemət - sərvət, şan-şöhrət, istedad, ağıl, təfəkkür, gözəllik - əslində sınaq kimi qəbul olunur. Və bu ağır sınaqdan necə keçməyə insanın əsl mahiyyətini açır. Əgər Xacə Səlahəddin Rəşid böyük mənsəbinə, sərvətinə, hakimiyyətinə rəğmən sadə, təvazökar bir insan olsaydı və Səfiəddin görsəydi ki, qardaşı sadə insanlardan fərqlənməyən həyat tərzi sürür, əlində olanları başqalarıyla bölüşür, fəqir-füqəraya əl tutur, öz səxavətiylə məşhurlaşıb - onda şəksiz ki, sevindiyindən onun ayaqlarına düşüb ağlayardı, qardaşının Tanrı sınağından uğurla keçməyinə görə şükür eləyərdi. Ancaq Səfiəddin gördü ki, qardaşı bu imtahandan çıxa bilməyib, qızılın parıltısı gözlərini tutub, cah-calalın dəbdəbəsi onu özünə tabe edib, bu qızıl qəfəsin əsiri olub... Və təbii, anladı ki, aralarında böyük uçurum əmələ gəlib...

(Bir az irəli qaçıb qeyd etməliyəm ki, bütün ömrü boyu Şeyx Səfiəddin həmişə cah-calaldan, zahiri dəbdəbədən uzaq qaçmağa çalışıb, hətta onun sorağı ilə Şərqin müxtəlif ölkələrindən minlərlə, hətta on minlərlə müridlər axışıb gələndə də eyni sadə həyat tərzini yaşayırdı və övladlarını da bu cür tərbiyə edirdi...)

Əsrlər boyu dünyanın dörd bir tərəfində yaşayan xalqlar toplumlar arasında oxşar hal təzahür edib - mənəviyyat sahiblərinin zahiri dəbdəbədən, cah-calaldan durmaları...

Çünki biliblər ki, zahiri cahcalalın, dəbdəbənin arxasında əksər hallarda mənəvi əsarət və ruhani çöküş dayanır...

## Təhlükəli gözəlliklər

Əslində, məgər indi elə deyilmi? Məgər az qala bütün dünya əhalisi bu saat zahiri gözəlliklərin əsarətində qalmayıbmı?

Son əlli ildə Qərbdəki istehlak cəmiyyətini və praqmatik paradiqmanı tənqid edən filosofların demək olar ki, hamısı bu detalı xüsusilə vurğulayırlar - "əvvəllər istismarçı təbəqələr toplumu qorxu ilə hakimyyətdə saxlayırlar, bu gün isə bəşəriyyət "gözəlliklər"in tilovundadır. Bu gözəlliklərə narkomanlar kimi elə aludə olmuşuq. Amma əslində zahirən maraqlı, gözəl, dadlı, cəlbedici olan hər şey - istər maddi, istərsə də qeyri-maddi məhsullar - əksər hallarda insanın xeyrinə yox, ziyanınadır və bəşəriyyətin məhvinə aparıb çıxarır..."

Düzgün fikirlərdir zənnimcə. İndiki dövr üçün bəlkə də həqiqətə ən uyğun tezis belə olar - Gözəllik təhlükəlidir.

Mövzudan aralansaq da, gəlin diqqət edək. Əvvəlcə maddi məhsullara baxaq - ən gözəl meyvələr külli-miqdarda dərmanlanmış, tərkibi kimyəvi maddələrlə dolu olan "plastmasa" bənzəyən meyvələrdir ki, gözəlliyilə bizi heyran edir; ən tamlı qida məhsulları müxtəlif kimyəvi dadgücləndiricilərlə zəngin olan qidalardır ki, təbii dadın təsirini qat-qat artırıb bizi bihuş edir; ən şirin, dadlı olan müxtəlif içkilərdir ki, cürbəcür kimyəvi qatqıların köməyi ilə fövqəladə gözəl tamlar əldə edərək, bizi az qala sərməst edir... Hələ müxtəlif kimyəvi, kosmetikalar, ətirlər sabunlar, şampunlar daha nələr-nələr...

Hər birinin tərkibi az qala Mendeleyevin cədvəlini özündə əks etdirir. Ancaq hamısı da gözəldi, rahatdı, yaxşıdı, şirindi, dadlıdı... Eyni zamanda da təhlükəlidi...

Yaxud qeyri-maddi dəyərlər - bu gün baxdığımız ən gözəl film və seriallar bizim əxlaq və mənəvi dəyərlərimizi dağıdır; dinlədiyimiz ən gözəl müasir musiqilər zövqümüzü pis hala salır; oxuduğumuz ən maraqlı bədii kitablar psixikamızı pozub içəridən dağıdır... (Əlbəttə, bu "dağılma"lar birdən-birə baş vermir. Yavaş-yavaş, hiss olunmadan... Lakin nəticə göz qabağındadır. Tarixin heç bir dönəmində dünya əhalisi bu qədər qorxunc xəstəliklərin, psixi-ruhi pozuntuların burulğanında olmayıb.)

Bəs sual oluna bilər - bu ziyanları bilə-bilə, niyə onları tərk etmirik?

Necə tərk edək? Axı gözəldilər, cəlbedicidirlər, dadlıdırlar, maraqlıdırlar, cazibədardırlar...

Axı kimi məcbur eləmək olar ki, cürbəcür konfliktlərin bir-birini izlədiyi dinamik filmi-serialı qoyub, maraqlı və gərgin olmayan hansısa sönük maarifləndirici filmə baxsın? Axı kimi məcbur eləmək olar ki, əvvəldən sonacan bir nəfəsə oxunan maraqlı gözəl kitabı qoyub, darıxdırıcı, yorucu kitabı başa çatdırsın... Axı kimi məcbur eləmək olar ki, par-par alışıb-yanan, dadı damağdan getməyən almanı, portağalı yeməyib, qurdlu meyvələrə üstünlük versin? (Hərçənd ki, rasional təfəkkür bunu da qəbul edir ki, əgər onun içində qurd varsa, deməli, orqanizmə zərərli deyil, kimyəvi dərmanlar vurulmayıb. Ancaq görünür ki, zahiri gözəllik elə bir gücə malikdir ki, rasional təfəkkürü də susdura bilir.)

Bəli, bəşəriyyətin böyük hissəsini tilovda da məhz bu "gözəl" vasitələrlə saxlayırlar; böyük-böyük elmi laboratoriyalar, elmi araşdırma institutları məhz bu "gözəlləşdirmə", "dadlılaşdırma" və sair vasitələrin üzərində çalışır, köhnələrini təkmilləşdirir, yenilərini kəşf edir, ancaq heç kim bu maddi və ya qeyri-maddi vasitələrin bəşərin gələcəyinə necə təsir edəcəyini düşünmür... Çünki hamı bu günlə yaşayır, hamı bu gününü gözəl istəyir.

Bu təhlükəli, öldürücü əsarətdən çıxmaq üçünsə, çox xırda bir keyfiyyət lazımdır - zahiri gözəllikləri görməmək; əksinə, zahirən gözəl olmayanlara diqqət etmək... hər halda, buna cəhd etmək...

("Gözəllik" deyəndə mən bura təkcə gözlə görünəni yox, bütün hiss orqanlarımızla duyduqlarımızı aid edirəm.)

Çox qısa tezisdir. Zahirən nə qədər sadə görünsə də, həyata keçirilməyi çox çətindir. Və əslində müsəlman Şərqinin də, elə bütün dünyanın da dərin təfəkkür sahibləri əsrlər boyu müxtəlif mistik-psixoloji təcrübələrlə məhz buna nail olmağa çalışıblar - zahiri gözəllikləri görməmək, əksinə, daxilə yönələn bəsirət gözünün açılmasına nail olmaq, bu yolla həqiqətə çatmaq...

Çin Konfusian fəlsəfəsində belə bir maraqlı deyim var - Həqiqət par-par yanan qiymətli qaşlarda yox, mamır basmış nəm daşlardadır. Onlara diqqət edin...

Gözəl kəlamdır. Öz təfəkkür dərinliyi ilə bu həqiqəti dərk etmiş gənc Səfiəddin də məhz bu səbəbdən doğma qardaşının cahcalallı, dəbdəbəli həyat tərzinə arxa çevirir. Çünki məqsədi zahiri gözəlliklərin əsirliyindən qurtulub həqiqətən də azad olmaq idi...

## Rahatlıq

Səfiəddinin qəbiristanlıqdakı türbədə məskunlaşandan sonra başına gələn mistik hadisələrə keçməmişdən əvvəl daha bir tarixi məqama da diqqət yetirmək istərdim.

O dövr barədə anlayışı az olan oxucularımıza "türbədə məskunlaşdı" kəlməsi qəribə gələr. Axı insan qəbiristanlıqdakı məqbərədə necə yaşaya bilər? Ev-eşik deyil, karvansara hücrəsi deyil, quru daş divardı...

Bəli, bizim müasir komfort təsəvvürlərimizlə müqayisədə əlbəttə ki, bu hal vəhşilik, cahillik kimi görünə bilər - Yumşaq yataq, isti ev, doyumluq yemək olmasa, insan necə yaşaya bilər? Məgər bunlardan məhrum həyatı heç həyat adlandırmaq olarmı?

Yenə də ünlü Qərb filosofu Erix Frommun məşhur fikrini xatırlatmaq istərdim: əvvəllər insanların ruhu rahat idi, ona görə də cismin narahatlıqlarını hiss eləmirdilər. İndi isə cismlər rahatdır, amma ruh narahat olduğuna görə, insanlar heç cür özlərinə yer tapa bilmirlər.

Bəli, əfsuslar olsun ki, müasir sivilizasiyanın elmi-texniki inkişafı bizi "rahatlıq əsiri"nə çevirib. Bu yaxşıdı, yoxsa pis - bu düşüncələri sonraya saxlamaq istəyirəm, indi isə yenə də Orta əsrlər Şərq mühitinə qayıtmaq lazımdır.

Həmin vaxtlarda məscidlər, pirlər, onların ətrafındakı qəbiristanlıqdakı türbələr, məqbərələr həm də müxtəlif insanların sığınacaq yeri idi. Cürbəcür səyyahlar, dərvişlər, zəvvarlar, yolçular, qasidlər, qaçaqlar və ən nəhayət, evsiz-eşiksiz səfillər belə yerlərdə gecələyərdilər, bəzən də uzun müddətə məskunlaşardılar. Əsas bu idi ki, yaxınlıqda içmək və dəstəmaz almaqçün su mənbəyi olsun... Qəbirlərin kənarında büzüşüb yatmaq isə o vaxtların adamları üçün o qədər də qorxulu deyildi.

(Elə yaxın tarixi nümayiş etdirən "Axırıncı aşırım" filmində Xudayarın qardaşının Qəmlodan qaçaraq, uzun müddət türbədə gizlənməsini xatırlamaq kifayət edər.)

Gənc Səfiəddin də qardaşının sarayında yumşaq pərqu döşəkdə yatmaqdan vaz keçərək, əhli-qübura üstünlük verir. Madər Suleyman məscidinin xidmətçiləriylə, ordakı sufilərlə, abidlərlə ünsiyyət qurur, onların rəğbətini qazanır, sonra da qəbiristanlıqda, öz həmyerlisi Şeyx Əbuzərin türbəsində ibadətlər, zikrlər edir...

Amma məhz bu zaman qəribə bir hadisə ilə üz-üzə qalır - elə birinci gecə düşəndən sonra, Səfiəddinin səhərəcən türbədə qalmaq istəyini bilən məscid xidmətçiləri onun qarşısını kəsirlər, bu fikirdən daşındırmağa çalışırlar.

Təəccüblənən Səfiəddin bunun səbəbini soruşanda sufilər əvvəlcə demirlər, nəhayət, onlardan biri qərib qonağa sirri açıb bildirir ki, Şeyx Əbuzərin qəbrində kim çilə çıxarmaq istəsə, elə birinci gecə nə baş verirsə, səhər ölüsü çıxır ordan. Eyni hal da dəfələrlə təkrar olunub...

Səfiəddin əvvəlcə tərəddüd edir, amma sonra nə fikirləşirsə, qətiyyətlə bildirir ki, "biz ikimiz də ərdəbilliyik, tanışdan-tanışa mürüvvət üzərindən ziyan dəyməz."

Xidmətçilər bir qədər səy eləsələr də, Səfiəddini fikrindən daşındıra bilmirlər və anlayırlar ki, hansısa ilahi qüvvə bu qərib sufini məhz həmin məzara tərəf çəkir və əgər əcəli də çatacaqsa, deməli qisməti elə buracan imiş... Beləcə, xidmətçilər çiyinlərini çəkib çıxıb gedirlər, Səfiəddin isə türbənin yarımqaranlığında itaət və ibadətə baş vurur...

Rəvayətlərə görə, gecə yarı Şeyx Əbuzərin qəbrindən dəmirçi kürəsindən çıxırmış kimi qığılcımlar çıxmağa başlayır. Səfiəddin əvvəl vahimələnib türbədən çıxmaq istəyir, amma görür ki, ayaqları quruyub, yerindən tərpənə bilmir... Beləcə səbr edir, nəhayət qığılcımlar Səfiəddinin boğazına sancılmağa başlayır, yalnız bundan sonra onun bədəni qızışır, istiləşir... Elə bu istiliyin içində də səhərini açır...

Sübh namazından sonra məscidin xidmətçiləri dəfn-kəfən üçün lazım olanları götürüb türbənin qapısına gəlirlər ki, qərib sufini aparıb dəfn eləsinlər. Ancaq türbəyə yaxınlaşanda görürlər ki, Səfiəddin sağ-salamat, zikr edə-edə içəridən çıxır...

Bundan sonra da Madər Süleyman məscidində Səfiəddinin başına qəribə mistik hdisələr gəlir, yavaş-yavaş onun haqqında söz-söhbətlər Şiraza yayılır, hamı danışır ki, Ərdəbildən gələn bir gənc abid gündüzlər oruc tutur, gecələr sabaha qədər zikrü-taətlə məşğuldur, həm də müxtəlif kəramətlər göstərir...

Şeyx Əbuzərin türbəsində Səfiəddinin başına gələn daha bir maraqlı hadisə də nəql edilir.

Rəvayətə görə, məscidin tanınmış ruhanilərindən biri Şeyx Əbuzərin qəbrinin ziyarətinə gələrkən, orda bir küncdə zikrlə məşğul olan gənc Səfiəddini görür. Onun çöhrəsi ruhaninin diqqətini cəlb edir, bir müddət dayanıb onun üzünə baxır nəhayət, dillənir ki, "Yeri , amadə (hazır) ol kim, üç gündən sonra ikindi namazına yetməyib, bəlkə günorta namazı çağı dünyadan köçüb axirətə varacaqsan."

O şəxs bu sözü deyib türbədən çıxır və bu sözdən sonra Səfiəddin kədər dəryasına qərq olur, amma ölümdən qorxduğuna görə yox, "mürşidə yetmədən, məqsudi hasil olmadan aləmdən varacağı üçün."

Məscidin qulluqçuları, ordakı sufilər, taliblər də məsələdən agah olub bildirirlər ki, həmin pirin ağzı faldı, əgər dedisə, deməli həqiqətən də, sənin üzündə əcəl kölgəsini görübdür, sənin axirət aləminə köçmək vəqtin yetibdir...

Beləcə, sakitcə taleyinə təslim olan Səfiəddin iki gününü ibadətlə, itaətlə keçirdir, üçüncü gün isə günorta namazından sonra kəlmeyi- şəhadətini oxuyaraq, Şeyx Əbuzərin türbəsində ölümə hazır vəziyyətdə oturub Əzrayılı gözləməyə başlayır...

*Ardı var*